# GÜRCÜSTAN

SAYI 11-12 (13.381)
CÜMƏ 14 FEVRAL 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## İRAKLİ KOBAXİDZE: "MEDİA HAQQINDA QANUN ÖLKƏNİN "AĞIR XƏSTƏLİYİ"Nİ SAĞALTMAQ ÜÇÜNDÜR"



***"Qanun layihəsi hələ irəli sürülməyib, amma bəzi insanlar media azadlığının məhdudlaşdırılmasından danışırlar. Belə çıxır ki, Böyük Britaniyada media azadlığı pozulub, bu isə gülməlidir – əgər problem varsa, ölkə niyə bu ağır xəstəlikdən sağalmamalıdır?".***

Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze "Media haqqında" qanuna planlaşdırılan dəyişikliklərlə bağlı danışarkən deyib.

Onun sözlərinə görə, media ilə bağlı dəyişikliklər sadəcə vacib deyil, həm də qaçılmazdır.

*"Problemi hamı qəbul edir və bu problemlər ATƏT/ODİHR-in hesabatlarında da qeyd olunur. Problem ondadır ki, Gürcüstanda media qütbləşmənin, nifrət çağırışlarının və yalan məlumatların əsas mənbəyinə çevrilib. Bu problem açıq-aşkar ortadadır. Bu, Gürcüstan media mühitinin əsas xüsusiyyətidir. Əgər problem mövcuddursa, ölkə niyə bu ağır xəstəlikdən sağalmamalıdır? Əgər bir diaqnoz və konkret bir xəstəlik mövcuddursa, ölkə niyə bundan xilas olmamalıdır? Buna qarşı çıxanların konkret maraqları var ki, ölkə qütbləşmə, nifrət və yalan rejimində yaşamağa davam etsin. Amma bu, cəmiyyətin maraqlarına uyğun deyil. Əksinə, Gürcüstan cəmiyyətinin marağı bu məsələlərin tənzimlənməsi və qaydaya salınmasıdır. Gürcüstan parlamentində mütləq qeydiyyatdan keçəcək qanun layihəsi məhz buna həsr olunacaq"*, - deyə hökumət başçısı qeyd edib.

Qeyd edək ki, "Gürcü Arzusu" fraksiyasının sədri Mamuka Mdinaradzenin sözlərinə görə, hakim komanda "Media qanunu" üzərində işləməyə başlayıb və tezliklə Britaniya modeli və qanunvericiliyinə uyğun olaraq "Media haqqında" qanun təşəbbüsü irəli sürüləcək.

Onun sözlərinə görə, qanun mediada obyektivlik və jurnalist etikası standartlarını müəyyən edəcək. Mdinaradzenin sözlərinə görə, bu standartların monitorinqi və qorunması üçün institusional mexanizmlər müəyyən ediləcək.

## "NATO-ya QOŞULMAQ GÜRCÜSTANIN GÜNDƏLİYİNDƏ DEYİL"

Bunu Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib.

*"Bizim kifayət qədər aydın xarici siyasi məqsədlərimiz var. NATO-ya inteqrasiya məsələsinə gəlincə, Qərb ölkələrinin qərarları və yanaşmaları səbəbindən hələ ki gündəmdə deyil"*, - deyə İrakli Kobaxidxe vurğulayıb.

O qeyd edib ki, Avropa İttifaqına inteqrasiya Gürcüstanın xarici siyasətinin əsas prioriteti olaraq qalır.

Onun sözlərinə görə, 2030-cu ilə qədər Aİ üzvü olmaq hədəfi Gürcüstan üçün əlçatandır.

## TRAMPLA PUTİN ARASINDA TELEFON DANIŞIĞI OLUB



***ABŞ Prezidenti Donald Tramp Rusiya lideri Vladimir Putinlə telefonla danışdığını bildirib.***

Bu barədə ABŞ-nin "New York Post" tabloidi Ağ Ev rəhbərinin özünə istinadən məlumat yayıb.

*"Prezident Tramp Rusiya lideri Vladimir Putinlə telefonla danışıb, Ukrayna ilə müharibəyə son qoymaq üçün danışıqlar aparıb"*, - nəşr belə yazır.

*"Mən susmağı üstün tuturam"*, - nəşr onun sözlərindən sitat gətirib.

Ağ Ev rəhbəri bir daha Rusiyanın Ukraynaya qarşı müharibəsini bitirmək üçün konkret planı olduğunu vurğulayıb, ancaq heç bir təfərrüat açıqlamayıb.

## HÖKUMƏT İCTİMAİ TƏŞKİLATLARA QRANT VERMƏK ÜÇÜN AGENTLİK YARADIR

***Hökumət ictimai təşkilatlara qrantlar verəcək publik hüquqi şəxs - "Dövlət Qrantlarının İdarə Edilməsi Agentliyi" yaratmağı planlaşdırır.***



Sözügedən qanun layihəsi artıq parlametdə təqdim olunub və sürətləndirilmiş qaydada baxılır.

Hökumətin məlumatına görə, Dövlət Qrantlarının İdarə Edilməsi Agentliyi qanunla müəyyən edilmiş qaydada büdcə vəsaitlərini seçilmiş ictimai təşkilatlara ayıracaq.

Layihənin izahatında qeyd olunur ki, 2025-ci il dövlət büdcəsi çərçivəsində vətəndaş təşəbbüslərinin dəstəklənməsi üçün 20 milyon lari ayrılıb və bu vəsait həm agentliyin yaradılması və fəaliyyətinə, həm də qrant şəklində veriləcək vəsaitlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Dövlət Qrantlarının İdarə Olunması Agentliyində təxminən on nəfər işlə təmin olunacaq.

Yeni qanun layihəsinin izahatında deyilir: *"Vətəndaş cəmiyyəti təşkilatları demokratik cəmiyyətin və dövlətin tərkib hissəsidir. Bu cür təşkilatlar analitik (beyin mərkəzi deyilən) və ya xidmət təminatçısı profilinə görə ölkənin inkişafında mühüm rol oynayır. Onlar hökumətin müxtəlif istiqamətlərdə fəaliyyətinə nəzarət edir, problemlərin həlli üçün alternativ yollar təklif edir, ictimai rəyin formalaşmasına töhfə verir, müxtəlif ictimai qruplara ixtisaslaşmış xidmətlər təklif etməklə hökumət üçün yardımçı funksiyaları yerinə yetirirlər.*

*İctimai təşkilatların fəaliyyəti dövlətdən müstəqil olsa da, bir çox Avropa ölkələrində onların inkişafının dövlət maliyyəsi ilə dəstəklənməsi və həvəsləndirilməsi üzrə uğurlu təcrübə mövcuddur.*

*Bir sıra ölkələrdə bu cür təşkilatlara vahid dövlət dəstəyi siyasətinin həyata keçirilməsi, o cümlədən onların maliyyə dəstəyi üçün ictimai müsabiqələrin elan edilməsi bu məqsədlə xüsusi yaradılmış müstəqil struktur bölmələri tərəfindən təmin edilir.*

*Bütün yuxarıda deyilənlərə əsaslanaraq və Gürcüstanda ictimai təşkilatların maliyyə mənbəyinin əsasən bu təşkilatların fəaliyyətinin gündəliyini özbaşına müəyyən edən xarici aktorlar olduğunu nəzərə alaraq, Gürcüstan hökumətinin təşəbbüsü Gürcüstan hökumətinin nəzarəti altında olan publik hüquqi şəxs – Dövlət Qrantlarının İdarə Olunması Agentliyinin yaradılmasından ibarətdir ki, onun məqsədi Gürcüstanın büdcə sahələrində fəaliyyət göstərən dövlət qurumları ilə birgə ölkənin inkişafında xidmət göstərəcək".*

## NARKOTİKLƏ MÜBARİZƏ SİYASƏTİ DAHA DA SƏRTLƏŞDİRİLƏCƏK



***Bu barədə "Gürcü Arzusu"nun icraçı katibi Mamuka Mdinaradze məlumat verib.***

*"Növbəti 2 ay ərzində narkotiklərlə mübarizə siyasətini və qanunvericiliyi sərtləşdirəcəyik, burada dövlət hər hansı növ narkotik satıcısına qarşı son dərəcə sərt olacaq. Eyni zamanda, istifadəçilərin bütün hüquqlarının qorunması şərtilə, onları narkotik maddələrdən imtina etməyə təşviq edəcəyik. Təbii ki, heroin və marixuananın istifadəsinə yanaşma eyni olmayacaq.*

*Bundan əlavə, onların hüquqlarının toxunulmaz qorunması ilə yanaşı, yetkinlik yaşına çatmayanlarla bağlı ədalət sistemini də sərtləşdirəcəyik"*, - deyə o, bildirib.

## BU GÜN BEYNƏLXALQ SEVGİLİLƏR GÜNÜDÜR



Sevgililər günü sevginin dilə gəldiyi, duyğuların çiçək kimi açdığı bir gündür. Hər il 14 fevralda ürəklər daha sürətlə döyünür, sevənlər bir-birinə daha yaxın olur. Bu gün yalnızca gül, şokolad və ya hədiyyə verməkdən ibarət deyil. Sevgililər günü, duyğuların ən saf şəkildə ifadə edildiyi, gözlərdəki parıltının sözlərdən daha çox şey söylədiyi andır.

Sevgililər günü Müqəddəs Valentin Günü kimi də bilinir və hər il 14 fevralda qeyd olunan sevgi və romantika bayramıdır. Tarixi qədim Romaya gedib çıxır və Müqəddəs Valentinin sevənləri gizlicə evləndirdiyi üçün şəhid olduğu deyilir. O vaxtdan bəri bu gün, sevgi mesajları, açıqcalar, gül və hədiyyələrlə sevgini ifadə etmək üçün xüsusi bir fürsətə çevrilib.

Bu gün, bəzən bir məktubda yazılan cümlələrdə, bəzən də səssiz bir qucaqlaşmada öz mənasını tapır. Əslində, sevgililər günü hər hansı bir təntənədən daha çox, ürəkləri birləşdirən duyğunun bayramıdır. Sevdiyimiz insanlarla keçirdiyimiz hər anın nə qədər dəyərli olduğunu xatırladan bu gün, həyatın gözəlliklərini paylaşmaq üçün də bir fürsətdir.

Sevgililər günü təkcə romantik münasibətlər üçün deyil, dostluğun, ailə bağlarının və insanları birləşdirən hər növ sevginin qeyd olunması üçündür. Bu gün, qayğının, diqqətin və səmimi duyğuların ən gözəl hədiyyə olduğunu xatırladır. Bu günü dəyərli edən isə aldığımız hədiyyələr deyil, paylaşdığımız gözəl anlar və qəlbimizin dərinliyindən gələn duyğulardır. Çünki sevgini ifadə etmək üçün bəzən bir söz, bəzən isə sadəcə ürəkdən gələn bir təbəssüm kifayətdir.

Sevgini ifadə etmək üçün yalnız 14 fevralı gözləməyək, çünki sevgi hər gün yaşanılmalı və hər gün qeyd edilməlidir.

**Aytən Fətullayeva**

PARLAMENT

# PARLAMENTİN SƏDRİ TƏTBİQ OLUNACAQ YENİ "MEDİA QANUNU" BARƏDƏ DANIŞIB



***"Mediaya aid qanunvericilik bir çağırışdır – burada yeni bir şey icad etməyəcəyik – Britaniya standartını götürəcəyik və tətbiq edəcəyik".***

Bunu Parlamentin sədri Şalva Papuaşvili jurnalistlərə müsahibəsində bildirib.

*"Mediaya aid qanunvericilik bir çağırışdır. Son qalmaqallı ifşalardan sonra gördük ki, ABŞ-nin büdcəsindən müxtəlif təşkilatlar vasitəsilə mediaya vəsait ayrılırdı ki, onlar öz narrativlərini yayaraq müxtəlif ölkələrə və beynəlxalq media səviyyəsində təsir göstərsinlər. Burada da ifşalar gördük ki, bəzi media qurumları maliyyə dəstəyi alaraq məhz onların istədiyi təbliğatı aparırdı.*

*İkinci məsələ, biz saxta xəbərləri müasir dünyanın əsas çağırışlarından biri kimi müzakirə edirik. Saxta xəbərlərin necə zərərli nəticələri ola biləcəyini Gürcüstanda da tez-tez görürük. Buna görə də, saxta xəbərlərlə mübarizə müasir demokratiyalar üçün əsas hədəflərdən biridir və biz də mübarizə aparmalıyıq. Beləliklə, burada yeni bir şey icad etməyəcəyik–mediaya aid Britaniya standartını götürəcək və tətbiq edəcəyik. Bu standarta dair suallarınız var?–Britaniyaya və ya onun Gürcüstandakı səfirliyinə müraciət edin, izah edərlər. Yox əgər hər hansı tənqidi fikriniz varsa, Britaniyanı və onun səfirliyini tənqid edə bilərsiniz"*,-deyə Şalva Papuaşvili qeyd edib.

"Gürcü Arzusu" partiyasının bu qanunun qəbulu ilə hansı yeni standartlar təklif etdiyi sualına cavab olaraq o bildirib ki, "standartların müəyyən edilməsinə ehtiyac yoxdur".

*"Ağıl bizə deyir ki, yalan danışmamalısan və məlumatı yoxlamalısan. Buna baxmayaraq, ağıl bunu bizə desə də və müxtəlif etika kodeksləri mövcud olsa da, onların yerinə yetirilməsi təmin olunmur, çünki bunun effektiv icra prosedurları yoxdur"* , - deyə o qeyd edib.

Mediaya dair mövcud qanunların sərtləşdirilib-sərtləşdirilməyəcəyi ilə bağlı suala cavabında Şalva Papuaşvili bildirib ki, *"qanunlar sərtləşdirilməyəcək, lakin daha effektiv olacaq ki, dezinformasiyalar insanları çaşdırmasın və aldatmasın".*

*"Xeyr, qanun daha effektiv olacaq ki, dezinformasiya cəmiyyətin beynini yumasın, onları çaşdırıb aldatmasın, əksinə, onlar real informasiya alsınlar. Cəmiyyətin məlumat almaq hüququ var və dezinformasiyaya məruz qalmamaq hüququ var. Bu qanunvericilik bunu təmin edəcək"*, - deyə spiker söyləyib.

Eyni mövzuya toxunan Şalva Papuaşvili amerikalıların onlara mediaya maliyyə ayrılması ilə bağlı "invoyslar" göstərdiyini qeyd edib.

*"Amerikalılar bizə birbaşa invoyslar göstərdilər ki, biz dediklərimizi təsdiqləsinlər. Orada açıq şəkildə görünürdü ki, müəyyən media qurumlarına vəsait köçürülürdü ki, maliyyələşdirənlərin təsiri həmin media vasitəsilə həyata keçirilsin. Belə media qurumları həqiqətə və cəmiyyətə xidmət etmirdi, onlar öz maliyyələşdirənlərinə xidmət edirdi"* , - deyə Parlamentin sədri bildirib.

# PARLAMENT DÖVLƏT QULLUĞU HAQQINDA QANUNA DƏYİŞİKLİKLƏRİ TƏSDİQLƏDİ

***Parlament "Dövlət Qulluğu Haqqında" qanuna dəyişiklikləri üçüncü oxunuşda qəbul edib.***



Yeni düzəlişlər dövlət müəssisələrində inzibati müqavilə ilə işləyən şəxslərlə bağlı müəyyən tələbləri dəqiqləşdirir.

Parlamentin yaydığı məlumata görə, qanun layihəsini hüquqi məsələlər komitəsinin sədri Arçil Qorduladze təqdim edib. O bildirib ki, dəyişikliklər inzibati müqavilələrlə işləyən rəhbər şəxslərin statusunu daha dəqiq müəyyənləşdirir.

**Əsas dəyişikliklər:**

•Dövlət idarələrinin rəhbər şəxsləri və müavinlərinin müqavilələri, əvvəlki qaydalardan fərqli olaraq, yeni rəhbər təyin olunduqda deyil, onun səlahiyyətlərinin icrasına başladığı anda qüvvədən düşəcək.

•Gürcü dilini bilmək tələbi yalnız məsləhətçi vəzifələrinə şamil edilməyəcək. Bu, dövlətin yüksək vəzifəli şəxslərə xarici dildə danışan məsləhətçilər tutmaq imkanı yaratması ilə əsaslandırılır.

•Keçid dövrü qaydaları təsbit olunur ki, bu da hazırkı hüquqi prosesləri tənzimləməyə yönəlib.

Bu dəyişikliklər dövlət idarəçiliyinin çevikliyini artırmaq və bəzi inzibati prosedurları daha şəffaf etmək məqsədi daşıyır.

# PARLAMENT MİTİNQ QAYDALARININ SƏRTLƏŞDİRİLMƏSİNƏ DAİR QANUN LAYİHƏSİNİ QƏBUL ETDİ

***Parlament mitinqlərlə bağlı qaydaların sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsini üçüncü oxunuşda qəbul edib.***

"Gürcü Arzusu" deputatları tərəfindən irəli sürülən bu qanun sürətləndirilmiş qaydada – iki plenar iclasda müzakirə olunaraq təsdiqlənib.

***Yeni qanuna əsasən:***

•Spontan (planlaşdırılmamış) mitinqlər rəsmi olaraq təqdir olunmur və onların keçirilməsi üçün yerli hakimiyyət orqanlarının yazılı xəbərdarlığı tələb edilir.



•Toplantıların icrasına cavabdeh qurum dəyişdirilir və ona yeni səlahiyyətlər verilir.

•Müvəqqəti tikililərin sökülməsi qaydaları tənzimlənir.

•Əgər mülk sahibinin yazılı icazəsi yoxdursa, qapalı məkanlarda mitinq keçirmək qadağan edilir.

•Yolların, körpülərin, tunellərin, magistralların və nəqliyyat qovşaqlarının bloklanması qadağan edilir.

Bundan əlavə, inzibati cəza tədbirləri sərtləşdirilir:

•İnzibati həbsin müddəti 15 gündən 60 günə qədər artırılır.

•Xırda xuliqanlıq – ictimai yerlərdə söyüş söymə və ya insanlara qarşı təhqiramiz davranış üçün cərimə 500 - 3000 lari arasında, həbs isə 20 günə qədər müəyyən edilir.

•Təkrar törədildikdə cərimə 3000-5000 lari, həbs isə 50-60 gün ola bilər.

•Vandalizm təkrarlanarsa, 2000 lari cərimə və ya 20 günədək həbs nəzərdə tutulur.

Qanuna əsasən, hüquq-mühafizə orqanları və dövlət məmurlarına qarşı təhqir də cəza altına düşür:

•Polis, hərbçi, məhkəmə icraçısı, penitensiar xidmət əməkdaşları və digər dövlət qulluqçularına qarşı təhqir, söyüş və ya alçaldıcı davranış 2000-5000 lari cərimə və ya 60 günədək həbs cəzası ilə nəticələnə bilər.

•Dövlət və siyasi vəzifəli şəxslərə qarşı təhqir və ya alçaldıcı davranış 1500-4000 lari cərimə və ya 45 günədək həbs cəzası nəzərdə tutur.

•Bu hərəkət təkrar edildikdə, cərimə 2500-6000 lari, həbs isə 5-60 gün arasında ola bilər.

•Dövlət vəzifəlilərinin təhdid edilməsinə görə silah gəzdirmə hüququ 3 il müddətinə ləğv edilə bilər.

Yeni qanun ictimai etirazların məhdudlaşdırılmasına yönəlmiş sərt tədbirlər kimi qiymətləndirilir.

## Sitat guşəsi



"Siz indi də proseslərin necə inkişaf etdiyini görürsünüz. İnqilab cəhdlərinin önündə məhz xaricdən maliyyələşdirilən QHT-lər dayanır. Bunlar USAID, NED (Demokratiyaya Dəstək Milli Fondu) tərəfindən maliyyələşdirilən təşkilatlardır. Onları artıq ABŞ-nin yeni administrasiyası da açıq şəkildə tənqid edir".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Xarici ölkələrin səfirləri ev sahibi ölkə və cəmiyyətlə körpü yaratmaq əvəzinə ölkəni idarə edənlər üçün təlimatçı rolunu öz üzərlərinə götürdülər. Bu, vəziyyəti o həddə çatdırdı ki, səfirlərin vəzifəsi ev sahibi ölkə ilə etimad yaratmaq deyil, lokal rəhbərliyə öz səlahiyyətlərini yeritmək oldu. Biz bunu Sovet dövründən yaxşı xatırlayırıq".

***Şalva Papuaşvili,***
***Gürcüstan Parlamentinin sədri.***



"Gəlin ordumuzu yoxlayaq ki, fırıldaqçılıq və sui-istifadə nəticəsində israf edilmiş və itirilmiş milyardlarla, yüzlərlə milyard dolları tapaq. Xalq məni bunu icra etmək üçün seçib".

***Donald Tramp,***
***ABŞ-nin Prezidenti.***



"Biz Azərbaycan ilə İran arasında dövlətlərarası əlaqələrin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasında münasibətlər sıx tellərlə bir-birinə bağlı olan xalqlarımızın ortaq tarixi, dini və mədəni dəyərlərindən qaynaqlanır".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti.***



"İstədiyiniz qədər şayiələr yaysanız da, fakt bir dənədir: Bidzina İvanişvili şəxsi vəsaitləri ilə şantaj edildikdən sonra özünün maraqlarından imtina etdi. Bu, konkret faktdır: Onun vəsaitlərinə həbs qoyulmuşdu, çünki o, ölkə düşmənlərinin, "dərin dövlətin" və onların nümayəndələrinin istədiklərini etmədi. Bu ölkədə müharibə başlamadı, ikinci cəbhə açılmadı, biz sanksiyalara qoşulmadıq. Buna görə də, adam öz vəsaitlərindən imtina etdi. O, şantaja boyun əymədi və ölkənin maraqlarını qurban vermədi".

***Kaxa Kaladze,***
***Tbilisinin meri.***



"Biz müttəfiqlik münasibətlərimiz olan Ermənistan və Azərbaycan tərəflərinin elə bir sülh müqaviləsi hazırlamasının tərəfdarıyıq ki, bu, gələcək nəsillər üçün "mina" qoymaq əvəzinə yol açsın və münasibətlərin davamlı uzunmüddətli tənzimlənməsini nəzərdə tutsun. Təbii ki, biz hər zaman irəliyə doğru hərəkəti asanlaşdırmağa hazırıq və Qərbin təkid etdiyi kimi, Ermənistan və Azərbaycanı həqiqətən mümkün qədər tez hansısa Qərb platformasında sülh müqaviləsi bağlamağa sövq etmək istəyən hər hansı tələsik sənədlərin bağlanmasının əleyhinəyik".

***Mixail Qaluzin,***
***Rusiya Xarici İşlər nazirinin müavini.***

## REGİON XƏBƏRLƏRİ

### Rustavi: "GƏNCLƏR VƏ QLOBAL İMKANLAR" ADLI GƏNCLƏR KONFRANSI KEÇİRİLİB




***Görüşü Rustavi meri Nino Latsabidze və Gənclər Agentliyinin rəhbəri Vaxtanq Baakaşvili açıblar.***

Tədbirdə Rustavi və Qardabaninin Gürcüstan parlamentindəki nümayəndəsi İrakli Şatakişvili, Oksford Liderlik Mərkəzi proqramının koordinatoru Amna Adnan, eyni proqramın rəhbəri Adnan Rafiq, Kembric Universitetinin nümayəndəsi Rafiulaf Kakari və Oksford Universitetinin Tələbə İttifaqının üzvü Leo Bakli iştirak ediblər.

Konfransda Rustavidən 300-dən çox gənc iştirak edib. Gürcü və əcnəbi natiqlər – Oksford və Kembric Universitetlərinin nümayəndələri XXI əsrin gənclərinin imkanlarından, karyera yüksəlişi üçün zəruri olan bacarıqların inkişaf etdirilməsindən, təhsil sahəsində rəqəmsal texnologiyaların rolundan danışıblar. Konfransın gənc iştirakçılarına Oksford Liderlik Məktəbinin sertifikatları və hədiyyələri təqdim olunub.

### Dmanisi: ÖZÜNÜİDARƏETMƏ RƏHBƏRLƏRİ VƏ İŞÇİLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

***Qara Dəniz Əməkdaşlıq Təşkilatının "Ekoloji cəhətdən təmiz davranış üçün təmiz və yaşıl düşüncələr" layihəsi çərçivəsində Dmanisi Bələdiyyəsinin meriyasında yerli özünüidarəetmə orqanlarının rəhbərləri və əməkdaşları ilə görüş keçirilib.***



Sual-cavab rejimində keçirilən görüşdə iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi sahəsində qarşıda duran təhlükə və çağırışlara toxunulub.

### Marneuli: MERİYADA MİLLİ HƏRBİ XİDMƏTLƏ BAĞLI DƏYİŞİKLİKLƏR MÜZAKİRƏ OLUNUB

***Marneuli meriyasında Milli Hərbi Xidmətlə bağlı dəyişikliklər (çağırış qaydaları) müzakirə olunub.***



Görüşdə Marneuli meri Kənan Ömərov, Hərbi Xidmətə Çağırış və Rektuitasiya üzrə Milli Agentliyin Kvemo Kartli Regional Mərkəzinin nümayəndəsi, baş serjant İrakli Xvedelidze və sözügedən mərkəzin Marneuli Munisipaliteti üzrə şöbə rəisi vitse-polkovnik Mixeil Andğuladze və merin inzibati ərazi vahidləri üzrə nümayəndələri iştirak ediblər.

Görüş zamanı, Gürcüstanın Müdafiə Məcəlləsində nəzərdə tutulan və 2025-ci ildən çağırışçıların milli hərbi xidmətinə təsir edəcək dəyişikliklər müzakirə olunub.

Bildirilib ki, qanunvericiliyə əsasən, 2025-ci ildən etibarən çağırışçıların seçimi, il ərzində təsadüfi seçim əsasında aparılacaq və hərbi xidmət yalnız Gürcüstanın Müdafiə Nazirliyi sistemi çərçivəsində mümkün olacaq.

Çağırışçılar üçün Milli Hərbi Xidmətin şərtləri aşağıdakılardır:

– Döyüş bölməsi — 6 ay, əmək haqqı — 765 lari;

– Döyüş dəstəyi və Döyüş təminatı bölməsi — 8 ay, əmək haqqı — 635 lari;

– Kiçik komandanlıq vəzifəsi və əvvəlcədən müəyyən edilmiş ixtisas üzrə xidmət — 11 ay, serjant üçün əmək haqqı — 1275 lari, zabitlər üçün — 1530 lari.

Sözügedən şəxslər 11 aylıq hərbi xidmətini başa vurduqdan sonra ehtiyata buraxılacaqlar.

Bundan başqa qeyd olunub ki, könüllü hərbi xidmətə gedənlərə 30 faiz yüksək maaş veriləcək.

## BEYNƏLXALQ HƏYAT

### NETANYAHU MÜHARİBƏNİ DAYANDIRMAQ ÜÇÜN ŞƏRTİNİ AÇIQLADI



***İsrailin Baş naziri Benyamin Netanyahu Fələstinin HƏMAS hərəkatının liderləri sürgünə göndərildiyi təqdirdə, Qəzza zolağında müharibəni dayandırmağa hazır olduğunu açıqlayıb.***

Netanyahu Vaşinqtona səfəri zamanı HƏMAS-ın hakimiyyətdən imtina edəcəyini və liderlərinin sektoru tərk edəcəyini bildirib.

Bu şərtlə İsrail daha çox fələstinli məhbusu azad etməyə hazır olduğunu bildirib. Netanyahu HƏMAS-ın liderlərinin sürgünə getməsini və Qəzzada hakimiyyətdən imtina etməsini tələb edəcək.

Lakin HƏMAS liderlərinin sürgünə razılaşması ehtimalı azdır.

### TRAMP İRANDAN DANIŞIB: "*MƏN ONLARI BOMBALAMAYACAĞAM*"

***"Mən İranla nüvə məsələlərində razılaşmaq istərdim, çünki bunu bombalamaqdan üstün tuturam".***

Bunu ABŞ Prezidenti Donald Tramp "The New York Post"a müsahibəsində qeyd edib.

Onun sözlərinə görə, belə bir razılaşma əldə olunarsa, İsrail İrana hücum etməyəcək. Bununla belə, Tramp potensial danışıqların təfərrüatlarını açıqlamaqdan imtina edib.

*"Onlara sövdələşməyə hazır olduğumu söyləyəcəyəm"* - deyib Tramp.

Razılaşmanın müqabilində İrana konkret nə təklif edəcəyi sualına Tramp belə cavab verib:

*"Çox sərt olduğu üçün deyə bilmərəm. Amma mən onları bombalamayacağam".*



## YARDIM ADI ALTINDA "GÖYƏ SOVRULAN MİLYONLAR" - USAID "ƏL DƏYİŞDİRİR", İNDİ NƏ OLACAQ?

***USAID uzun illər boyunca Amerikanın xarici siyasətində mühüm rol oynayıb və böyük maliyyə vəsaitləri ayıraraq "humanitar yardım" və "demokratik inkişaf layihələri" həyata keçirib. Bu agentlik 2023-cü ildə dünya üzrə 42,4 milyard dollar vəsait ayırıb və 2024-cü ildə bu rəqəmin 35,4 milyard dollar olacağı təxmin edilirdi. Amma Tramp administrasiyasının yeni rəhbərliyi altında USAID-in fəaliyyətinə dair köklü dəyişikliklər baş verir və bu, bürokratik dəyişiklikdən çox daha dərin yenilənmədir.***

Trampın tənqidlərinə görə USAID "humanitar yardım" adı altında ABŞ-nin maraqlarını önə çəkən və şübhəli məqsədlər üçün maliyyə təmin edən struktura çevrilib. Hətta İlon Mask da USAID-i bioloji silahların hazırlanmasında, xüsusilə də COVID-19-un yaradılmasında iştirak etməkdə ittiham edib və bu cür ağır ittihamlar Tramp administrasiyasının ciddi islahatlar və yeni təşəbbüslərlə qərar verdiyini göstərir.




Donald Trampın ikinci prezidentlik dövrü başladıqdan sonra USAID-in ləğvi ABŞ-nin xarici təsir mexanizmlərinin və humanitar yardım siyasətinin yenidən təhlil edildiyini və buna qarşı yeni yanaşmaların tətbiq olunduğunu göstərir. USAID-in ləğvi yalnız bu təşkilatın fəaliyyətini dayandırmaq deyil, həm də ABŞ-nin xarici siyasətindəki dəyişikliklərin göstəricisidir.

USAID-in ləğv edilməsi ilə yanaşı agentliyin internet saytı bağlandı, sosial media hesabları silindi və çox sayda işçi işdən çıxarıldı. Bu sürətli addımlar ABŞ-nin humanitar yardım və demokratik inkişaf layihələri üçün ayrılan büdcənin əvvəlki müstəqil strukturlarından yoxlanılmayan və şübhəli layihələrə xərcləndiyini göstərdi. Məsələn, 6 milyon dolların Misirdə turizmin inkişafına, 2 milyon dolların Qvatemalada LGBT aktivizminə və 1,5 milyon dolların Serbiyada "inklüzivlik" təşviqatına xərclənməsi təəccüblü görünür. Bu kimi layihələrə yönləndirilmiş vəsaitlər, ABŞ vergi ödəyicilərinin pullarının mənasız və şübhəli məqsədlər üçün sərf edildiyini göstərir və buna görə də USAID-in bağlanması diqqət çəkir.

**USAID ABŞ-nin gizli silahı kimi**

USAID illərlə ABŞ-nin geosiyasi maraqlarını gücləndirmək məqsədini daşıyan alət kimi istifadə olunub. Bu təşkilat humanitar yardım və inkişaf şüarlarının arxasında gizlənərək, əsasən müstəqil media və qeyri-hökumət təşkilatlarını maliyyələşdirib, Vaşinqtonun maraqlarına uyğun olan yalan məlumatları yaymağa çalışıb. USAID-in Azərbaycandakı fəaliyyətləri, xüsusən də böyük dezinformasiya kampaniyalarının maliyyələşdirilməsi, ölkənin suverenliyinə qarşı açıq təzyiqlərdən biri olub. 90-cı illərdə Ermənistandan və işğal olunmuş ərazilərdən qovulan azərbaycanlıların yaşadığı əsl etnik təmizliyi görməməzlikdən gələrək, USAID erməni təbliğatını dəstəkləyib. Lakin, bu cəhdlərə baxmayaraq, Azərbaycan öz suverenliyini qorumağı bacarıb və Vaşinqtonun təzyiqlərinə qarşı durub. USAID-in ləğvi bu təşkilatın özünün iflasını və qlobal prosesləri manipulyasiya etməyə çalışan qüvvələrin məğlubiyyətini göstərir. Bugün USAID artıq tarixə qarışır.

USAID-in ləğvi yalnız bu təşkilatın fəaliyyətini bitirmir, əksinə, bir çox ölkənin artıq ona olan asılılığına son verir. USAID-in ən böyük benefisiarlarından olan Ukrayna, İsrail, İordaniya, Efiopiya və Əfqanıstan kimi ölkələr artıq yeni maliyyə mənbələri axtarmağa məcbur olacaqlar. BMT baş katibi Antonio Quterreş ABŞ-nin humanitar yardımını dayandırmaması üçün Trampa müraciət etsə də, Ağ Ev bu çağırışı qəbul etməyib və bildirib ki, çox sayda vəsait qeyri-məqsədli və şübhəli layihələrə xərclənib. Bu vəziyyət ABŞ-nin gələcəkdə daha çox kontrol altına alınan yeni və daha təmiz mexanizmlərə keçmə qərarı ilə izah edilə bilər.

**USAID tarixə qovuşur, bundan sonra necə olacaq?**

USAID-in bağlanması dünya siyasətində ciddi dəyişikliklərə səbəb ola bilər. Trampın sərt tənqidləri və yeni tədbirləri, ABŞ-nin humanitar yardım və təsir alətlərinin yenidən təşkilatlandırılmasına yol açıb. Bəzi analitiklər USAID-in tamamilə ləğv olunacağını gözləsələr də, faktiki olaraq, agentlik çox güman ki, adı və rəhbərliyi dəyişdirilərək yenidən fəaliyyətə başlayacaq. Analitiklərin fikrincə Trampın məqsədi ABŞ-nin qlobal təsirini davam etdirərkən bu təsirin daha az ifşa olunan və daha az diskreditasiya edilmiş yollarla həyata keçirilməsidir. ABŞ-nin xarici siyasətindəki bu dəyişikliklər, xüsusən də inkişaf etməkdə olan ölkələrdə Çin və Rusiyanın təsirinin artmasına səbəb ola bilər.

USAID-in ləğvi eyni zamanda ABŞ-nin digər ölkələrin daxili işlərinə müdaxilə siyasətinin dəyişməsinə və daha gizli əməliyyatlara keçilməsinə yol aça bilər. ABŞ-nin bu addımlarında nə qədər səmimi olduğu və yeni strukturların nə qədər gizli və effektiv olacağı gələcəkdə daha aydın olacaq. Yəqin ki, yeni strukturlar Dövlət Departamenti altında daha yaxşı gizlədilmiş olacaq. Belə ki, USAID-in əvvəlki fəaliyyətlərinin miqyası və dərinliyi, ABŞ-nin qlobal təsir alətlərindən əl çəkməyəcəyini, sadəcə yeni bir forma alacağını göstərir.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÖZLÜKÇÜ** is. Gözlük qayıran usta; eynəkçi, çeşməkçi.

**GÖZLÜKLÜ** *sif.* 1. Gözündə gözlük olan, gözlük taxmış: eynəkli, çeşməkli. *Gözlüklü qadın. Gözlüklü müəllim.*

*Gözlüklü qoca kitabları vərəqlədikcə toz qalxırdı.*

Çəmənzəminli.

**Gözlüklü ilan** *zool.* – Afrikada və Orta Asiyada yaşayan, boynunun ardında gözlüyə oxşar dairələr olan iri, zəhərli ilan.

**GÖZMUNCUĞU** *is.* Bədnəzərdən, gözəgəlmədən qorunmaq üçün taxılan ağxallı, qara muncuq. *Boynuna gözmuncuğu taxmaq.*

*Ağ qoçların boyunlarından ara-sıra gözmuncuğu və yaşıl meşindən tikilmiş içi dualı üçkünc pitik asardılar.*

H. Sarabski.

**GÖZOTU** *is. bot.* Çəmənliklərdə bitən çiçəkli bir ot bitkisi.

**GÖZSÜZ** *sif.* Gözü görməyən, kor. Gözsüz qoca.

*Bir həqiqətdir, iştə gözsüzlər,*
*Kor olur, nuri-haqqi görməzlər.*

H. Cavid.

**GÖZSÜZLÜK** *is.* Gözü görməyən adamın halı; korluq. *Gözsüzlük pis dərddir.*

[Məsmə:] [Ərimgil] *gözsüzlük bədbəxtliyini, korluq fəlakətini özləri üçün bir nemət hesab edirdilər.*

S. Hüseyn.

**GÖZUCU** *zərf* Gözünün ucu ilə; quşbaxışı, ötəri. *Gözucu baxmaq. Gözucu süzmək.*

*Qurbani gözucu onları gördü.*

"Qurbani".

*Vaqif geyinib otaqdan çıxdı və yenə gözucu arvadını süzdü.*

Çəmənzəminli.

**GÖZÜBAĞLI** *sif. və zərf* 1. Gözləri bağlanmış, sarınmış halda (olan). *Əsiri gözübağlı gətirdilər.*

2. *məc.* Heç bir şeydən xəbəri olmayan, bilikcə, zehni inkişafca, mədəniyyətcə geri qalmış (gözüaçıq əksi). *Gözübağlı qalmaq.*

[Ataşa] *elə gəlirdi ki, Mürsəl gözübağlı, biliksiz bir kənd uşağıdır.*

Ə. Vəliyev.

**GÖZÜDOYMAZ** *sif.* Heç şeydən gözü doymayan; tamahkar, acgöz. *Gözüdoymaz adam.*

**GÖZÜDOYMAZLIQ** *is.* Heç şeydən gözü doymama; tamahkarlıq, acgözlük.

**GÖZÜKÖLGƏLİ** *sif. və zərf* Birinin yanında eybi, qüsuru, nöqsanı olan, dili qısa olan. *Gözükölgəli adam.*

[Leylək]*...ağasının müqabilində gözükölgəli olmamağa çalışırdı.*

S. Rəhimov.

**GÖZÜKÖLGƏLİLİK** *is.* Gözükölgəli adamın halı; diliqısalıq, eyiblilik, qüsurluluq, nöqsanlılıq.

**GÖZÜQIPIQ** *sif.* 1. Gözləri tam açıla bilməyən, gözləri yarıyumulu olan.

//Kirpiklərini tez-tez döyən, gözlərini tez-tez qırpan.

2. *məc.* Hər şeydən qorxan, səksənən, diksinən; qorxaq, cəsarətsiz.

[Dəmir:] *Xofludu, – dedi. – Yetim olub, gözüqıpıq olub.*

*Caynağına keçirtdiyi şeyi cəmi-aləm tökülsə də, onnan ala bilməz.*

İ. Məlikzadə.

**GÖZÜQIPIQLIQ** *is.* 1. Gözlərin tam açıla bilməməsi, yarıyumulu olması.

//Kirpiklərini tez-tez qırpma xasiyyəti.

2. *məc.* Hər şeydən qorxma, səksənmə, diksinmə; qorxaqlıq, ağciyərlik.

**GÖZÜMÇIXDI gözümçıxdıya salmaq** – yerli-yersiz, haqlı-haqsız danlamaq, töhmət etmək, incitmək, əziyyət vermək. *Uşağı gözümçıxdıya salmaq.*

*Bu Pası da yazığı lap gözümçıxdıya salıbdır.*

S. Rəhimov.

**GÖZÜTOX** *sif.* Heç bir şeydə tamahı olmayan, aza qane olan, tamahkar olmayan (acgöz əksi). *Gözütox adam.*

**GÖZÜYAŞLI** *sif.* Gözləri yaşarmış olan, gözlərindən yaş axan; ağlar. *Gözüyaşlı uşaq.*

*//Zərf mənasında.* Daim ağlayan adam haqqında.

*Biçarə Məşədi Əsgər indi üç gün idi ki, gözüyaşlı ... anasına balalarının əhvalına alışırdı.*

S. M. Qənizadə.

**GÖZYORUCU** *sif.* Yeknəsəqliyi, rənglərinin uyğunsuzluğu və s.-yə görə gözü yoran, çox baxmaq mümkün olmayan. *Gözyorucu boz səhra.*

**GUP-GUP** *təql.* 1. Ayağın yerə tez-tez dəyməsindən hasil olan səs.

Bir fincan çay içər-içməz pilləkənləri gup-gup başıaşağı endim.

A. Şaiq.

2. Ürək döyüntüsünün səsi. *Ürəyi gup-gup döyünür.*

*Gup-gup döyünüb darıldı bağrım!*

M. Ə. Sabir.

**GUR** *sif.* 1. Güclü, qüvvətli, şiddətli. Günəşin gur şüaları.

*–Ocağı gur* (z.) *qaladı; Günortaya hazır oldu çığırtma.*

R. Rza.

// Bərk. Ocaq gur (z.) yanır.

// Qızğın. *Gur alver gedir.*

2. Bol və qüvvətli, güclü, coşqun. *Gur çay. Gur çeşmə.*

*Sərin göllər, dərin çaylar keçmişəm,*
*Bulaqların gur suyundan içmişəm.*

Ə. Cavad.

3. Güclü, qalın. [Anatolunun] *gur səsindən pəncərələrin şüşələri cingildədi.*

S. Vəliyev.

4. Qalın, sıx.

[Xədicənin] *...gur saçları nəzərdiqqəti cəlb edirdi.*

İ. Hüseynov.

*Qaşqanın gur yalı doğrudan da dəniz kimi ləpələnirdi.*

Q. İlkin.

5. Çox adam olan, qələbəlik, səsküylü; gediş-gəliş, hərəkət çox olan, izdihamlı. *Gur bazar. Gur şəhər.*

**GURŞAD** *sif.* Çox bərk və sürətlə yağan.

*...Gurşad yağmur ehtiyatsız yolçuları islanmış cücəyə döndərir.*

M. Rzaquluzadə.

// *İs.* Gur yağış, şiddətli yağış.

*Dəli dağın ətəklərində sel və gurşaddan sonra göllər, gölməçələr əmələ gəlirdi.*

S. Rəhimov.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| **ა** | a | ან | **მ** | m | მან | **ღ** | ğ | ღან |
| **ბ** | b | ბან | **ნ** | n | ნარ | **ყ** | ğ* | ყარ |
| **გ** | q | გან | **ო** | o | ონ | **შ** | ş | შინ |
| **დ** | d | დონ | **პ** | p* | პარ | **ჩ** | ç | ჩინ |
| **ე** | e | ენ | **ჟ** | j | ჟან | **ც** | ≈ ts* | ცან |
| **ვ** | v | ვინ | **რ** | r | რაე | **ძ** | ≈ dz | ძილ |
| **ზ** | z | ზენ | **ს** | s | სან | **წ** | ≈ ts | წილ |
| **თ** | t | თან | **ტ** | t* | ტარ | **ჭ** | ≈ tç | ჭარ |
| **ი** | i | ინ | **უ** | u | უნ | **ხ** | x | ხან |
| **კ** | k* | კან | **ფ** | p | ფარ | **ჯ** | c | ჯან |
| **ლ** | l | ლას | **ქ** | k | ქან | **ჰ** | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağıdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### სიყვარულის დღე (Siğvarulis dğe) Sevgililər Günü

**სიყვარულის დღე მთელ მსოფლიოში 14 თებერვალს აღინიშნება.** (Siğvarulis dğe mtel msoplioşi 14 tebervals ağinişneba.) **– Sevgililər Günü bütün dünyada 14 fevralda qeyd olunur.**

**ამ დღეს შეყვარებულები ერთმანეთს სიყვარულს გამოხადავენ.** (Am dğes şeğvarebulebi ertmanets siğvaruls qamoxadaven.) **– Bu gün sevgililər bir-birinə sevgilərini göstərirlər.**

**მათ საჩუქრებს, ყვავილებს და შოკოლადებს ჩუქნიან.** (Mat saçukrebs, ğvavilebs da şokoladebs çuknian.) **– Onlar hədiyyələr, güllər və şokoladlar verirlər.**

**ამ დღის ისტორია რომის იმპერიაში იწყება.** (Am dğis istoria romis imperiaşi itsğeba.) **– Bu günün tarixi Roma imperiyasında başlayır.**

**ლეგენდის მიხედვით, იმპერატორმა კლავდიუსმა ახალგაზრდა მამაკაცებს ქორწინება აუკრძალა, რადგან ფიქრობდა, რომ დაქორწინებული მამაკაცები ბრძოლაში სუსტები იყვნენ.** (Legendis mixedvit, imperatorma klavdiusma axalqazrda mamakatsebs kortsineba aukrdzala, radqan pikrobda, rom dakortsinebuli mamakatsebi brdzolaşi sustebi iğvnen.) **– Əfsanəyə görə, imperator Klavdius gənc kişilərə evlənməyi qadağan etdi, çünki o, evli kişilərin döyüşdə zəif olduğunu düşünürdü.**

**წმინდა ვალენტინი შეყვარებულებს ფარულად ასაქორწინებდა და ამით იმპერატორის ბრძანებას ეწინააღმდეგებოდა.** (Tsminda Valentini Şeğvarebulebs parulad asakortsinebda da amit imperatoris brdzanebas etsinaağmdeqeboda.) **– Müqəddəs Valentin sevgililəri gizlicə evləndirir və bununla da imperatorun əmrinə qarşı çıxırdı.**

**როდესაც ამის შესახებ შეიტყვეს, ვალენტინი დააპატიმრეს და სიკვდილი მიუსაჯეს.** (Rodesats amis şesaxeb şeitğves, Valentini daapatimres da sikvdili miusaces.) **– Bu hadisə məlum olanda, Valentini həbs etdilər və ölümə məhkum etdilər.**

**ლეგენდის მიხედვით, სიკვდილამდე მან წერილი მისწერა ციხის მცველის შვილს, რომელსაც შეუყვარდა, და ბოლოს ასე მოაწერა ხელი – „შენი ვალენტინი“.** (Legendis mixedvit, sikvdilamde man tserili mistsera tsikhis mtskvelis shvils, romelsats sheuqvarda, da bolos ase moats'era kheli – „sheni valentini".) **– Əfsanəyə görə, ölümündən əvvəl o, həbsxana nəzarətçisinin qızına məktub yazdı və sonda belə imzaladı – „Sənin Valentinin".**

**არ დაივიწყოთ, პირობებისა და გარემოებების მიუხედავად მთავარი ის არის, რომ სიყვარული გულწრფელად აღიაროთ.** (Ar daivitsğot, pirobebisa da qaremoebebis miuxedavad mtavari is aris, rom siğvaruli qultsprerlad ağiarot.)**– Şəraitdən və vəziyyətdən asılı olmayaraq, ən vacibi sevgini ürəkdən etiraf etməkdir.**

**სიყვარულით სავსე დღე გისურვებთ!** (Siğvarulit savse dğe qisurvebt!)**– Sevgi dolu bir gün arzulayıram!**

GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*3 fevral 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### Biz ədalətsiz, təkəbbürlü Avropa ilə əməkdaşlıq etməməliyik! "Sameqrelo Ağsaqqallar Şurası"nın Gürcüstanın AŞPA-da iştirakını dayandırması ilə bağlı bəyanatı

"Sameqrelo Ağsaqqallar Şurası" və şuranın sədri Pridon İncia Gürcüstan nümayəndə heyətini parlament seçkilərinin Avropa Şurası Parlament Assambleyası tərəfindən legitimliyinin tanınması münasibətilə təbrik edib, eləcə də, gürcü tərəfinin Assambleyadan çıxmaq qərarını ləyaqətli addım kimi dəyərləndirib.

"Gürcüstanın Avropa Şurası Parlament Assambleyasından çıxması çox böyük əhəmiyyət kəsb edən faktdır. Ona görə də gürcü xalqı ona obyektiv qiymət verməlidir.

Gürcüstan nümayəndə heyətinin demarşına səbəb Assambleyanın aprelə qədər yeni seçkilərin keçirilməsi ilə bağlı qərarında yer alan qeyd-şərt olub.

Nümayəndə heyəti Avropaya Gürcüstanda 2024-cü il oktyabrın 26-da keçirilən parlament seçkilərinin legitimliyini tanıtdı. Assambleya bu tanınmadan qaça bilməz, çünki əks halda məlum olacaq ki, onların qərarına əsasən parlament aprelə qədər legitim olacaq, apreldən sonra isə legitimliyini itirəcək, bu da, təbii ki, absurddur.

Legitimlik obyektiv reallıqdan asılıdır, subyektiv tanınıb-tanınmamaqdan deyil. Avropa Şurası Parlament Assambleyasının qərarında yer alan yuxarıda qeyd edilən qeyd-şərt məcburiyyətdən başqa bir şey deyil; daxili işlərə qarışmaqdır; suverenliyin pozulmasıdır. Bu qeyd-şərt Gürcüstan Konstitusiyasına, gürcü xalqının mütləq əksəriyyətinin iradəsinə və sağlam düşüncəyə ziddir.

"Sameqrelo Ağsaqqallar Şurası" Gürcüstan nümayəndə heyətini Assambleya tərəfindən seçkilərin legitimliyinin tanınması münasibətilə təbrik edir. Eyni zamanda, Gürcüstan tərəfinin ləyaqətin diktə etdiyi Assambleyadan çıxmaq qərarını alqışlayır, xüsusən də Parlament Assambleyasının qərarı kimi bu qərar da bir qeyd-şərtlə qəbul olunduğuna görə. Xüsusilə, AŞPA gürcü xalqına qarşı təkəbbürlü və ədalətsiz münasibətini dəyişərsə, Gürcüstan əməkdaşlığa hazırdır.

"Sameqrelo Ağsaqqallar Şurası" Avropa ilə yalnız bərabərlik və tərəfdaşlıq əsasında əməkdaşlığı dəstəkləyir, lakin heç bir halda rəis-tabeçi münasibətlə deyil!"

**Fridon İncia,**
**"Sameqrelo Ağsaqqallar Şurası"nın sədri**

### "Namaxvani" Su - Elektrik Stansiyası gürcü xalqı tərəfindən tikilməlidir

Namaxvani Su Elektrik Stansiyasının gücü 131 MqVt-dır. Ona görə də su - elektrik stansiyasının tikintisinə 260 milyon dollar lazım gələcək.

Bir səhmin qiymətinin 1000 dollar müəyyən edilməsini məqsədəuyğun hesab edirik, çünki bu, xalqımız üçün ən məqbul olandır. Belə bir ehtimalla təxminən 260 min Gürcüstan vətəndaşı bir səhm alacaq.

Ölkə iqtisadiyyatını bilik və zəka əsasında quran 260 min Gürcüstan vətəndaşı ölkədə vətən və vətəndaş müharibələrinin, qanunsuzluğun, qeyri-sabitliyin qarşısını alacaq qüvvədir.

Hökumət su - elektrik stansiyasının istehsal etdiyi elektrik enerjisinin hər kVt/saatına görə 0,065 dollar ödəyir. Beləliklə, SES-in gəliri (760 milyon kilovatsaat 0,065 ABŞ dollarına vurulduqda) 49,4 milyon dollar olacaq. Bir səhmdarın illik gəliri 190 dollar, ayda isə 16 dollar olacaq.

Ayda 16 dollar çox aşağı gəlirdir, lakin siz 1000 dollara daha sərfəli investisiya edə bilməzsiniz. Gəlir zəhmətsiz və daimidir. Pay sahibi Gürcüstanın çox mühüm əmlakının ortaq sahibidir, onu heç kim əlindən ala və ya sata bilməz. Azacıq da olsa, gəlirləri olandan sonra vətəndaşlarımız artıq xaricə qaçmayacaqlar.

Səhmdar cəmiyyət yaratmaqla Namaxvani Su-Elektrik Stansiyasının tikintisi də icra hakimiyyətinin maraqlarına uyğundur. Hökumət sosial cəhətdən həssas vətəndaşlar üçün səhmlər almalı və müvafiq olaraq onlara sosial yardımı dayandırmalıdır.

760 milyon kilovatsaatı 344 qram şərti yanacağa vuranda 261 440 ton dizel yanacağına bərabərdir, bu da ekologiyanın yaxşılaşdırılması və və atmosferə illik zərərli qazların emissiyasının azaldılması üçün çox önəmlidir.

*9 fevral 2025-ci il* **"KVİRİS PALİTRA**

### "Mənim Putinlə həmişə yaxşı münasibətim olub, onunla danışmışam, o, insanların ölməsinin dayandırmasını istəyir," – deyə Donald Tramp qeyd edib

ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə telefonla Ukraynadakı müharibə ilə bağlı danışıb. Tramp bunu "New York Post"a müsahibəsində deyib.

Putinlə neçə dəfə danışdığını soruşduqda Tramp belə cavab verib: "Deməməyi üstün tuturam".

O deyib ki, Putin döyüş meydanındakı vəziyyətlə maraqlanır və daha çox insanın ölməməsini istəyir.

"Bütün o ölü insanlar", "Gənc, gözəl insanlar", "Onlar sizin övladlarınıza bənzəyirlər, onların iki milyonu - və heç bir səbəb olmadan", Tramp deyib.

O, bir daha vurğulayıb ki, 2022-ci ildə prezident olsaydı, Ukrayna ilə Rusiya arasında heç vaxt müharibə olmazdı.

"Mənim Putinlə həmişə yaxşı münasibətim olub. Bayden millətimiz üçün biabırçılıq idi. "Tamamilə biabırçılıqdır" deyən Tramp, müharibəni bitirmək üçün konkret planının olduğunu əlavə edib.

"Ümid edirəm ki, tezləşdirəcəyik. İnsanlar hər gün ölür. Bu müharibə çox pisdir. "Mən bu lənətə gəlmiş işi bitirmək istəyirəm" - deyib Tramp.

*7-13 fevral 2025-ci il* **"VEÇERNİY TBİLİSİ"**

### ETIAS nədir və nə zaman qüvvəyə minəcək?

2025-ci ildən Avropaya səyahət edənlər üçün, o cümlədən Gürcüstan vətəndaşları üçün sərhədləri keçmək barədə qanun dəyişir.

Xüsusilə, yazdan Avropa İttifaqına vizasız giriş hüququ olan 60-dan çox ölkənin 1,4 milyarda qədər vətəndaşının 27 Şengen ölkəsinə, həmçinin Bolqarıstan, Rumıniya və Kiprə səyahət üçün ETIAS adlanan səyahət avtorizasiyasına ehtiyacı olacaq.

ETIAS Avropaya Səyahət Məlumatı və Avtorizasiya Sistemidir, eynilə onlayn-avtorizasiyadır. Fəal ETIAS 180 günlük müddət ərzində 30 Avropa ölkəsində 90 günə qədər qalmağa imkan verir.

İcazə üçün müraciət etmək ETIAS-ın rəsmi saytında mümkün olacaq.

ETIAS-a müraciət etmək üçün ən azı üç ay ərzində fəal pasport, e-poçt ünvanı, onlayn formanı doldurmaq, 7 avro həcmində rüsum ödəmək lazımdır. 18 yaşdan kiçik və 70 yaşdan yuxarı şəxslər üçün müraciət pulsuzdur.

Avropaya səyahət avtorizasiyasının fəaliyyət müddəti üç il təşkil edir. Əgər pasportun müddəti ETIAS-ın müddətinin bitməsindən əvvəl başa çatırsa, yenidən müraciət etmək lazımdır. Müraciətlərin əksəriyyəti bir necə dəqiqə ərzində həll olunur. Bundan əlavə, sözügedən proses nisbətən uzunmüddətli ola bilər. Proses zamanı icazə üçün əlavə sənədlər tələb olunarsa, baxılma prosesi 14 günə, müsahibəyə dəvət olunduqda isə 30 günə qədər uzanacaq. Buna görə də, planlaşdırılan səyahət müddətinizdən bir neçə həftə əvvəl avtorizasiya üçün müraciət etmək yaxşıdır.

Qeyd edilməlidir ki, Avropa vizasız ölkələrin vətəndaşları üçün səyahət avtorizasiyasını tətbiq edən ilk ölkə deyil. Oxşar tələblər ABŞ, Kanada və Avstraliyada da mövcuddur.

SAĞLAMLIĞIMIZI QORUYAQ

## YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

### BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN



**Çili bibəri**

Çili bibərləri "Capsicum annuum" tropik alt kolunun müəyyən növlərinin meyvələridir. Sözügedən növ budaqlanmış gövdələri, elliptik yarpaqları, bənövşəyi ləkələri olan iri ağ və ya bozumtul çiçəkləri olan 60 sm-ə qədər hündürlüyə çatan bir bitkidir. Bitki yumru şəkildən uzunsova , sarı və qırmızı rəngdən qara-zeytun rənginə qədər nazik perikarplı meyvələrə sahibdir. Bu bitkinin vətəni tropik Amerikadır. Peru qəbiristanlıqlarında tapıntılara əsasən, çili bibəri avropalıların Amerikaya gəlməsindən çox əvvəl yerli xalqlar tərəfindən becərilirmiş. Amerikaya gələn ispanlar və portuqallar həmin bitkini "hindu" adlandırıblar. Bibərin adı "qırmızı" mənasını verən Astekcə "çilli"dən gəlir. Qırmızı bibərin kəskin ətri və dadı ədviyyatlılıqdan kəskinliyə və hətta çox kəskinliyə qədərdir (tərkibində fenolik birləşmə olan kapsaisin var. Kapsaisin meyvənin toxumlarında, damarlarında və qabığında olur. Çili bibəri çoxlu miqdarda A və C vitaminlərini ehtiva edir, B vitaminlərinin yaxşı mənbəyidir, xüsusən də B6 vitamini ilə zəngindir. Qırmızı bibər, həmçinin kalium, maqnium və dəmirlə zəngindir. Eləcə də həmin meyvədə efir yağı və başqa yağlar var.

Bibərin tərkibi onun orqanizm üçün faydalı xüsusiyyətlərini müəyyən edir.

Çili bibərinin faydalı xüsusiyyətlərinə aşağıdakılar daxildir:

A və C vitaminlərinin, ferulik turşunun tərkibisayəsində mövsümi və xroniki xəstəliklərdən qorunma; qan dövranının yaxşılaşdırılması, beyin fəaliyyətinin aktivləşdirilməsi;

Çili bibəri arıqlamaq üçün təsirli olur, çünki onların qabıqlarında maddələr mübadiləsini sürətləndirən bir komponent olan kapsaisin var; saç və dırnaqların böyüməsini yaxşılaşdırmaq, dərini yeniləmək – həmçinin ənlik və kremlərin bir hissəsi kimi xaricdən tətbiq edildikdə.

Kişilər və qadınlar üçün çili bibərinin faydaları demək olar ki, qeyri-məhduddur! Kəskin rayihəli qabıqları hər iki cinsdə diabetin qarşısını almaqda təsirli olur. Bundan əlavə, onlar yaxşı əhval-ruhiyyə hormonu olan endorfin istehsalını təşviq edir.

Amma bu bibərin də bir sıra əks göstərişləri var. Qidada bu ədviyyatın həddindən artıq istifadəsi allergik reaksiyalara, qaşınma və ya şişməyə səbəb ola bilər. Qastrit və ya xoradan əziyyət çəkənlər Çili bibərini xüsusi ehtiyatla istehlak etməlidirlər. Qırmızı Çili bibərinin həddindən artıq istehlakı koordinasiyanın pozulmasına və hallüsinasiyalara səbəb ola bilər.

*(Davamı növbəti sayımızda)*



## EMİN ELSEVƏR (MAHMUDOV) — 85

# BUKER MÜKAFATINDAN – TA DUMANDAN QURDUĞUMUZ XEYMƏLƏRƏ QƏDƏR

(esse)

Dünyanın ən nüfuzlu ədəbiyyat mükafatlarından biri olan Buker mükafatının uzun siyahısına həmyerlimiz Nana Ekvtimişvili düşən kimi can Azərbaycanda "Niyə qonşu Gürcüstan bunu bacarır, biz isə bacarmırıq?" mövzusunda sual yağışları yağmağa başladı. Hətta Mədəniyyət Nazirliyini, Yazıçılar Birliyini günahkar görüb, topa tutanlar da oldu.

Qəribə burasıdır ki, müəllifin bu debüt romanı vətənində 2015-ci ildə nəşr olunmuş, Azərbaycanda isə 2019-cu ildə çapa hazırlanaraq qardaş Türkiyədə işıq üzü görmüş və 2021-ci ildə də bu nüfuzlu mükafatın siyahısına düşə bilmişdi. Lakin bu zaman ərzində nə Nana xanım, nə də onun kitabı haqqında can Azərbaycanda səsini çıxaran olmamışdı.

Tiflis tərəfflərdə diqqətimi çəkən, narazı olanların, ədəbiyyata heç yaraşmayan kütlə-kom psixologiyasından daha çox, arada-sırada hay-küy salanların bircəciyinin də kitabı dilimizə çevirənin adını çəkməməsi idi. Yəni yazılarda kitabın işıq üzü gördüyü nəşrlər evinə (Bakı, TEAS Press Nəşriyyat Evi), az qala kitabın rənginə, mətbəə qoxusuna, kitabın qardaş Türkiyədə çapına qədər qeydlər olurdu, lakin tərcüməçinin adı haqda... bircə qaşı kaman kəlmə də!

Yəni yazıçı-tərcüməçi Emin Elsevər demək, bəzi dilləri eləmi kilidləyirdi?

Buker mükafatının bir keyfiyyəti də tərcüməçilərə xüsusi önəm verməsidir. Belə ki, nəzərdə tutulan pul mükafatı yazıçı ilə tərcüməçi arasında bərabər bölünür. Əgər can Azərbaycanda müəllifin (bizim mövzuda xanım Nana Ekvtimişvilinin) Bukerin siyahısına düşən adı azından 10 dəfə çəkilirsə, onda bu ad çəkilmək xoşbətliyi tək bircə yol da tərcüməçinin payına niyə düşməsin?

Yazıçılar və tərcüməçilər arasında geniş yayılmış belə bir deyim var: bəzi tərcümələr Kolizey xarabalıqlarını xatırladır...

Axı Emin müəllimi, yazıçı-tərcüməçi Emin Elsevəri, kökünə tam yetincə isə Emin Abdulla oğlu Mahmudovu, əslində xüsusi təqdim eləməyə epistolyar ehtiyac da yoxdur.

Lakin tərcümələr xarabalığı deyil – lap Kolizey xarabalıqları olsun! – əksinə, hətta dünyanın yeddi möcüzəsindən cəmi ikisini, məsələn, İskəndəriyyə mayakını, ya da Semiramida (Babil) asma bağlarını xatırlatsa belə, gərək burada bir xeymə – hələ xotkarlar, ya da xanlar xanədanlarımız bir yana! – xatirəmiz də ola. Xalq mahnımızda deyildiyitək:

*Dumanlı dağların başında durdum,*
*Dumandan özümə bir xeymə qurdum.*

Dumandan qurulsa da, bu binələr, çadırlar, xeymələr özümüzündür. Dağlarımız yıxılsa da, dursa da bizimdir!

Yəni yaxşıları niyə həmişə qonşularda, ya da uzaqlarda axtarmalıyıq?



Bir də ki, bizə siyahıya düşməyə, Bukerə, ya da Qonkur mükafatına, lap elə Nobelə doğru getməyə kim, ya da nə mane olur axı?

Riçar Brenson demiş: giriş və elə! Yəni girişək və eləyək! Lap Emin Elsevər kimi!

Onun tərcüməsində İ. Çavçavadzenin "Otaröyünün dul qadını"nı, V. Pşavelanın "Körpə cüyürün hekayəti"ni, G. Leonidzenin "Faytonçu Yaqor"unu, Nodar Dumbadzedən və Amirecibidən, Naira Gelaşvilidən elədiyi tərcümələri oxumaq yetər ki, simvolik də olsa, tərcüməçinin yenidən ucaldılmış Kolizeyindən də, qədimdən bu günlərə işıq tutan İskəndəriyyə mayakından da, Semiramida bağlarından da halı olasan! Amma doğma binələr, çadırlar-xeymələr, dayanacaqlar daxil!

Oxuyasan və görəsən ki, Emin müəllimin yazıçı-tərcüməçi yolları da hamar olmayıb.

...Onunla bağlı "Məni xatirələrə qaytardınız..." başlıqlı söhbətim və ("Region Press" qəzeti, 30.IX.2010), "Data Tutaşxia ilə birlikdə Tiflis turu" ("Varlıq" qəzeti, 31.I.2014), "Emin Elsevərin baş keçidi" (Novator.az saytı, 30.XI.2015) adlı yazılarım var.

O, Başkeçiddən, Gəyliyən kəndindəndir. Babalarımız əcəb deyiblər: "Keçid başından bəlli olar"!

Emin müəllimin nəsri, radio və qəzet jurnalistliyi, dərslik tərcüməçiliyi barədə az deyilməyib. Bədii tərcümələrinə gəlincə, gürcü nəsrindən elədiyi tərcümələrə toxunuruqsa, mütləq Emin Elsevərin çap görmüş kitablarının redaktoru, mənim də xətrini çox istədiyim gənc Oqtay Kazımovun adını çəkmək lazımdır!

Emin müəllimlə namə üstündə qurulan söhbətlərimiz də olub ki, bunun da kökü qədim-qayım Tiflisin "Ustari" nəşriyyatındakı bir görüşümüzə bağlıdır. "Ustari"ini dilimizə çevirəndə namə, məktub anlamını verir. Nəşriyyata bu adı vaxtilə yazıçı Otia İoseliani verib. Həmin İoseliani ki, bir Panteon (bizdə: Fəxri Xiyaban) arzusu da olmayıb və vəsiyyətinə əsasən Tsxaltubodakı evinin həyətində dəfn edilib. Cənab Otia ahıllıq yaşına çatanda ilk şeirlər kitabını buraxmışdı. Həyat eşqi o qədər güclü olub! Emin müəllimlə bəzi söhbətlərimizin namə üstündə getdiyini ona görə xatırlatdım ki, o da yaşının aqillik-ahıllıq çağında şeirlərini çap etdirdi. Yəni Emin müəllimin həyatında da P. Koelyonun məşhur "Kimyagər" romanında olduğutək, şifrli, vaqifanə namələr var. Məhz bu işıqlı işarələrdən, şifrlərdən tutub gedən yazıçıların, şairlərin və tərcüməçilərin qələmindən yazıçı ruhunun, yazıçılıq əzabının diri və duru qanı damır, barmaqları qəlblərini qabar eləyir...

***Bir arazbarı haşiyə***

Neçə illər bundan əvvəl Tiflisdən arazbarı uzaqlarda, Aran Dəllərində, indi dünyanın ucqar yeri kimi tanıtdığım yerində, kol ətəyində – peyğəmbər ətəyində Azərbaycan dilində verilişlər redaksiyasının redaktoru Emin Elsevərin (onda Mahmudov) səsini həsrətlə gözləyən bir ana və dörd də övladı var idi: anam Gülzar, qardaşlarım Bilal, Şakir, bacım Zərifə və mən. Onda televiziya kanalları nə gəzirdi? Anadilli radio dalğalarının həsrətini çəkənlərin sayı da indikitək barmaqhesabı deyildi. Qədim-qayım Tiflisdə qalınqabıq qərarlaşan və oralardan yayımlanan, cəmi yarım saatlıq verilişdəki (onun da 15 dəqiqəsi "mahnı qanadları"nda olurdu) qeybdən gələn səs kimi gözəl səsi yağışlı bir axşamda:

*Yağma, yağma, atam çöldədir,*
*yapıncısı evdədir. –*

havasına köklənib, dinlədiyimiz yadımdadır. Atam çoban idi – Allah köçənlərinizə rəhmət eləsin! – radiodan gələn o gözəl səs bizə həm də onda Başkeçiddən elə, düzilqarlı Əyriqarın ətəklərində atamın çaldığı çox dərdin tərcüman tütəyin səsini xatırladırdı...

...Elə indinin özündə də Emin müəllimin kökdən düşməyən və baba yurdu bürc-qala Başkeçiddən elə – Şindilər, Sənəkuçan, Şamdüyə, Əyriqar, Yastıqar boyu zirvədən-zirvəyə keçid alan səsini dinləmək üçün onunla görüşməyə dəyər!

...85 illiyinizi buralardan təbrik edirəm, Emin müəllim, Başkeçiddən! Əlimi uzatsam Gəyliyənə də əlim çatar!

Buralarda Sizin binələriniz hələ də çadır-çadırdı...

Yolunuzu gözləyirik!

Bir vaxtlar Bakının yolları su yolu olmuşdu; inşallah, yenə açılar!

**İbrahimxəlil**

***"Gürcüstan"ın kollektivi qəzetin fəal və təəssübkeş yazarı, tanınmış tərcüməçi, iti qələmli jurnalist, gözəl insan və sadiq dost Emin Elsevəri əlamətdar yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayır.***

## YENİ NƏŞR




***Bu günlərdə Bakının "Vətən" nəşriyyatında (naşir Ş.Acalov) tanınmış tərcüməçi, yazıçı və jurnalist Emin Elsevərin (Mahmudov) həyat və yaradıcılığına həsr olunmuş "Şərəfli ömür yolu" adlı kitab nəşr edilib.***

Emin Elsevərin 85 illik yubileyi ərəfəsində işıq üzü görən kitaba yubilyarın yaradıcılıq yoluna, bütövlükdə isə şərəfli ömür yoluna işıq tutan yazılar toplanmışdır.

### Abdulla Kərkibaş nəticəsiyəm

"Xan qızı"nın oylağından gəlmişik,
Abdulla Kərkibaş nəticəsiyəm.
Əslim-nəcabətim güvənc yerimdi,
Ziyalı bir nəslin törəməsiyəm.

Qaçqın eyləyiblər bizi bir zaman,
Didərgin salıblar Kərkicahandan.
Bir gün o yerlərə dönəsiyəm mən.
Babaların əli uzaqlı qaldı,

Görə bilmədilər o xoşbəxt günü,
İki əsr çəkdi hicranın sonu.
Heyif, bu dünyadan nakam getdilər.
Nə sevinc gördülər, nə vüsala yetdilər.

İndi bu yük düşüb mənim çiynimə,
Gərək fəxrlə daşıyam bu yükü.
Yükün ağırlığı büdrətsə əgər,
Nəvə-nəticələr qaldırarlar qolumdan.

İndi mən o günün həsrətindəyəm,
Artıq yetişmişdir hicranın sonu...

### Gəyliyən

Beş ildir ki, görməmişəm üzünü,
Dərəsini, təpəsini, düzünü,
Xəzəl basmış bulaqların gözünü,
Quş olub köksünə qonam, Gəyliyən!

Yada düşür Haçaqaya, Çamurlu,
Keçiuçan, Böyükbulaq, Kömürlü,
İnsanı eyləyən uzunömürlü,
Nola, yenə düşə yolum, Gəyliyən!

Sənsiz darıxmışam, səbrim tükənib,
Elə bil başıma odlar ələnib,
Sevincinə, şadlığına bələnib,
Sinəndə seyr edib, qanam,Gəyliyən!

Səninçün göynəyir burnumun ucu,
Fəxrim, vüqarımsan, başımın tacı,
Ay ilham mənbəyim, dərdim əlacı,
O sönən halına yanam, Gəyliyən!

Çal-çağırlı günlər qalıb arxada,
Yaman seyrəlibdir dayaq, arxa da,
Bəxtəvərli günlərini sal yada,
Dirçəl, gör Tanrıdan aman,, Cəyliyən!

Qorqud məskənisən, başım sərvəri,
Adın olub mənim dilim əzbəri,
Anam bu dünyadan köçəndən bəri,
Sən olmusan mənim anam, Gəyliyən!

Qənşərin Lök-Lələvər, arxandı Şindi,
Ağqala örkənin indi bilindi.
Göyərçinli, san, bəzəkli gəlindi
Həsrət qalıb gözüm yaman, Gəyliyən!

Zümrüd meşələrin seyrəkləşibdi,
Yadlar həmlə edib, həddin aşıbdı,
Emin bu yerlərdən ayrı düşübdü,
Qaqqıldaşıb uçmur sonam, Gəyliyən!

### Məni

Maraqlı bir kitabam,
Açıb, oxuyun məni.
Ətirli dağ gülüyəm,
Dərib, qoxuyun məni.

Allahım verib ağıl,
Bütün həyatım nağıl,
Gözüm, yadlardan yığıl,
Yaddan qoruyun məni.

Arzularım çox safdır,
Diləklərim səf-səfdir,
***"Gürcüstan"***lı dostlar, bəsdir,
Hərdən yoxluyun məni.

Sizsiz çox darıxmışam,
Hey yollara baxmışam,
Sanki yaralı quşam,
Naxələflik etsəm...oxluyun məni.

### Borçalı aşıq məktəbi

*(Aşıq Ramini dinləyərkən)*

Bizim bu Borçalı aşıq məktəbi,
Ölməyib, yaşayır, öləsi deyil.
Bu ocağı ozanlarmız qalayıb,
Sönmür, hələ yanır, sönəsi deyil.
Qəribdən, Sadıqdan, Məmməddən qalıb,
Ömərdən, Söyündən, Xındıdan qalıb,
Ağacandan, Əhməddən, Valehdən qalıb.
Əmrahın sazından olası deyil,
Kamandar bir daha gələsi deyil.
Səhnəyə gəliblər yeni nəsillər,
Bu məktəb üstündə tüktək əsirlər,
Cığırlar açırlar, yollar çəkirlər.
Bu əbədi yolun davamçıları,
Qoy Sizin yolunuz uğurlu olsun,
Səsiniz Təbrizdən, Dərbənddən gəlsin!

### Gözəllik vurğunu

Mən gözəllik vurğunuyam,
Gözüm gözəllik axtarlr.
Mənim də öz gözəlim var,
Heyif, məndən uzaqdadır.

Neynirəm özgəni, yadı,
Borçalıdır onun adı,
Damağımda qalıb dadı.
Diş göynədən bulaqları,

Qızıl xallı balıqları.
Gül-çiçəkli yaylaqları,
İnsanlara əl eyləyir,
Gəl, sinəmdə dincəl deyir.

Möcüzədir hər guşəsi,
Dağları ilham teşnəsi.
Heyran eyləyir hər kəsi,
Tarixlərdən gəlir səsi.

**Emin Elsevər (Mahmudov)**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



### 14 fevral

•1779 — Səyyah və tədqiqatçı Ceyms Kuk Sakit okeanda olan Sandviç adalarında yerli aborigenlər tərəfindən öldürülüb.
•1876—Aleksandr Bell və Elişa Qrey telefona patent almaq üçün müraciət edib.
•1879 — Çili qüvvələri Boliviyanın Antofaqasta liman şəhərini işğal etdikdən sonra Sakit Okean Müharibəsi başlayıb.
•1928—Quram Pataraia, gürcü kinorejissor, anadan olub.
•1949 — Knesset (İsrail parlamenti) ilk dəfə toplanıb.
•1956 — Azərbaycan Televiziyası (AzTV) təsis edilib.
• 2005 — YouTube Platforması Yaradılıb
•BMT — Beynəlxalq Kitab Bağışlama Günü
• BMT — Beynəlxalq Sevgililər Günü

### 15 fevral

•1564 — Qalileo Qaliley, İtaliya fiziki, riyaziyyatçısı və astronomu, anadan olub.
•1828—Nodar Çxeidze, gürcü ədəbiyyatşünas, tənqidçi anadan olub.
•1946—ENIAC - İlk ümumi təyinatlı elektron kompüter Pensilvaniya Universiteti tərəfindən təqdim edilib.
•1965—Kanada bayrağına ağ-qırmızı rəngli ağcaqayın yarpağı əlavə edib.
•1989—Əfqanıstan müharibəsi: Sovet İttifaqı rəsmi olaraq bütün qoşunlarının Əfqanıstanı tərk etdiyini elan edib.
•2003—Dünyanın 600-dən çox şəhərində İraq müharibəsinə qarşı etirazlar keçirilib. Səkkiz milyondan 30 milyona qədər insanın iştirak etdiyi etirazlar tarixin ən böyük sülh nümayişi sayılır.
•Əfqanıstan — Qurtuluş Günü
•Serbiya — Dövlətçilik Günü

### 16 fevral

•1891—**Nikoloz Musxelişvili, gürcü riyaziyyatçı, anadan olub.**
•1918 — Litva Rusiya və Almaniyadan müstəqilliyini elan edib.
•1985 — "Hizbullah" təsis edilib.

### 17 fevral

•1201—**Nəsirəddin Tusi, Azərbaycan filosofu və astronomu, anadan olub.**
•1600 — Cordano Bruno, İtaliya filosofu, vəfat edib.
•1856 — Henrix Heyne, Almaniya şairi, vəfat edib.
•1895 — Əliağa Vahid, Azərbaycan şairi, anadan olub.
•1947—"Amerikanın Səsi" radiostansiyası SSRİ-də yayımlanmağa başlayıb.
•1979 — Çin ordusu Viyetnamı işğal edib. Çin - Viyetnam müharibəsi başlayıb.
•2008—Kosovo Serbiyadan ayrılaraq müstəqilliyini elan edib.
•2020—Qiorqi Şenqelaia, gürcü rejissor və aktyor vəfat edib.
• Kosovo—**Müstəqillik Günü**

### 18 fevral

•1405 — Əmir Teymur, Teymurilər əmiri, vəfat edib.
•1930—Yanvar ayında çəkilmiş fotoşəkilləri araşdırarkən Klayd Tambo Plutonu kəşf edib.
•1932 — Yaponiya Mancuriyanın Çindən müstəqilliyini elan edib.
•1940—Quram Pirtsxalava, gürcü aktyor, vəfat edib.

### 19 fevral

•1810 — Kutaisidə Rusiya hökmranlığı elan edilib.
•1878—Tomas Edison fonoqrafın ixtirası üçün patent alıb.
•1878 — Nikoloz Dadiani, gürcü şair, yazıçı və publisist, anadan olub.
•1884 — Leo Kiaçeli, gürcü yazıçı, anadan olub.
•1959—Kipr Respublikası İngiltərə, Türkiyə və Yunanıstan arasında üçtərəfli razılaşma ilə qurulub.
•1986—Sovet orbital stansiyası "Mir" kosmosa buraxılıb.

### 20 fevral

•1877 — Moskvada Böyük Teatrda Pyotr Çaykovskinin "Qu gölü" baletinin premyerası keçirilib.
•1914—Konstantin Baramidze, gürcü alim, anadan olub.
•1920—Qori bölgəsində zəlzələ: Qoridəki binaların əksəriyyəti uçdu, 114 nəfər öldü.
•1984—Fikrət Əmirov, Azərbaycan bəstəkarı, vəfat edib.
•1993—Ferruçço Lamborgini, İtaliya iş adamı, vəfat edib.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## NİKOLAY MUSXELİŞVİLİ



***Sovet riyaziyyatçısı və mexaniki. AMEA-nın fəxri üzvü. 1891-ci ildə Tbilisidə anadan olmuşdur.*** O, təhsilini Sankt-Peterburq Universitetində almış və burada riyaziyyat üzrə ixtisaslaşmışdır. 1914-cü ildə Peterburq Universitetini bitirib, 1922-ci ildən Tbilisi Universitetinin və Politexnik İnstitutunun professoru, 1941-ci ildən Gürcüstan SSR EA Razmadze adına Riyaziyyat İnstitutunun direktoru olmuşdur. Universitetdə oxuduğu illərdə nüfuzlu rus alimlərinin rəhbərliyi altında çalışmışdır. Təhsilini başa vurduqdan sonra Musxelişvili riyaziyyatın nəzəri və tətbiqi sahələrində fəaliyyətini davam etdirmişdir.

Musxelişvili riyaziyyat və mexanika sahələrində fundamental tədqiqatlar aparmışdır. O, xüsusilə inteqral tənliklər, elastiklik nəzəriyyəsi və kompleks analiz sahələrində böyük nailiyyətlər əldə etmişdir.

İnteqral tənliklər nəzəriyyəsi sahəsində əhəmiyyətli işlər görmüşdür. Elastiklik nəzəriyyəsi sahəsində fundamental tədqiqatlar aparmış, bu sahənin inkişafına böyük töhfə vermişdir. Kompleks analiz və onun tətbiqləri üzrə mühüm nəticələr əldə etmişdir. Onun "Elastikliyin riyazi nəzəriyyəsinin bəzi əsas problemləri" monoqrafiyası alimlər üçün standart dərs vəsaiti oldu. Bir neçə dəfə nəşr edilmiş və bir çox xarici dillərə tərcümə edilmişdir. Nikoloz Musxelişvilinin elmi işinin ən böyük nailiyyətini əks etdirən bu əsəri elastiklik nəzəriyyəsi gələcək inkişafına böyük təsir göstərmişdir.

Musxelişvilinin ən məşhur əsərlərindən biri "İnteqral tənliklər və onların tətbiqləri" kitabıdır. Bu əsər uzun illər boyunca riyaziyyatçılar və mexanika mütəxəssisləri üçün əsas istinad kitablarından biri olmuşdur.

1941-ci ildə Gürcüstan Elmlər Akademiyası təsis olunanda Niko Musxelişvili onun ilk prezidenti seçilmişdir. O, uzun illər bu vəzifədə çalışaraq Gürcüstanda elmin inkişafına böyük töhfə vermişdir. Musxelişvili bir çox xarici ölkə akademiyalarının, elmi idarələrin və cəmiyyətlərin üzvü olmuşdur. O, 1941, 1947-ci illərdə SSRİ Dövlət mükafatı laureatı olmuş, 5 Lenin ordeni, "Oktyabr inqilabı" ordeni, M.V.Lomonosov adına Qızıl medalla (1972), 2 xarici ordenlə, eləcə də başqa orden və medallarla təltif olunmuşdur.

Nikolay Musxelişvili riyaziyyat və mexanika elmlərində mühüm iz qoymuş böyük bir alim idi. O, Gürcüstanın elmi inkişafında əvəzsiz rol oynamış, dünya miqyasında tanınan elmi işlərə imza atmışdır. Gürcüstan Elmlər Akademiyasının yaradılması və inkişafı onun adı ilə sıx bağlıdır. Bu gün onun elmi irsi riyaziyyatçılar və mexanika üzrə mütəxəssislər tərəfindən öyrənilməyə davam edir.

## NƏSİRƏDDİN TUSİ




***Xacə Məhəmməd Nəsirəddin Tusi 1201-ci il fevral ayının 17-də (hicri 597) Tus şəhərində tərbiyəçi ailəsində anadan olmuşdur. Mütəfəkkirin əsl adı Məhəmməd, atasının adı Məhəmməd, babasının adı isə Həsəndir.***

Nəsirəddin Tusi Orta əsrlərin ən görkəmli alimlərindən biri olub və elmin müxtəlif sahələrinə - riyaziyyat, astronomiya, fəlsəfə, tibb, mühəndislik və etikaya böyük töhfələr verib. O, həm də böyük bir siyasi və ictimai xadim kimi tarixə düşmüşdür.

Tusi erkən yaşlarından geniş elmi biliklərə yiyələnmişdir. İlk təhsilini doğulduğu Tus şəhərində almış, daha sonra Nişapurda o dövrün ən məşhur alimlərindən riyaziyyat, astronomiya, məntiq və fəlsəfə üzrə dərslər almışdır.

Tusi, xüsusilə sferik triqonometriya sahəsində böyük yeniliklər etmişdir. O, bu sahəni müstəqil bir elm kimi inkişaf etdirmiş və sinus, kosinus, tangens və kotangens funksiyalarını sistemləşdirmişdir. Onun riyaziyyat sahəsindəki əsas əsərlərindən biri "Şəklül-qita" (Fi Şakl əl-Qıta) kitabıdır ki, bu, triqonometriyanın əsaslarını izah edən ən mühüm orta əsr mənbələrindən biridir.

Tusi, XIII əsrin ən möhtəşəm elmi müəssisələrindən biri olan Marağa Rəsədxanasını qurmuşdur. Bu rəsədxana o dövr üçün ən qabaqcıl astronomik müşahidələrin aparıldığı yer olmuşdur. O, planetlərin hərəkətini daha dəqiq təsvir edən Tusi cütlüyü (Tusi Couple) adlanan mexaniki modeli yaratmışdır ki, bu, daha sonra Kopernik tərəfindən istifadə olunmuşdur.

Tusi öz astronomik biliklərini "Zic-i İlxani" adlı əsərində toplamışdır. Bu əsər dövrünün ən dəqiq astronomik cədvəllərini əhatə edirdi və Avropa alimlərinə də təsir göstərmişdir.

O, fəlsəfədə Əbu Əli İbn Sinanın yolunu davam etdirmiş, həm Aristotel, həm də İslam fəlsəfəsini dərindən öyrənmişdir. "Əxlaqi-Nasiri" adlı əsərində insanın mənəvi və etik inkişafını izah etmişdir. O, etik prinsipləri daha elmi və sosial baxımdan əsaslandırmağa çalışmışdır.

Tusi həm də tibb və kimya sahələrində mühüm əsərlər yazmışdır. O, tibbi nəzəriyyələr və farmakologiya sahəsində özündən əvvəlki alimlərin biliklərini sistemləşdirmiş və bəzi yeni müalicə üsulları irəli sürmüşdür.

Nəsirəddin Tusi monqolların hücumu zamanı Hülakü xanın sarayında çalışmış və onun elmi işlərinə dəstək göstərməsinə nail olmuşdur. O, Bağdadın monqollar tərəfindən fəthindən sonra elmin və mədəniyyətin qorunması üçün çalışmışdır. Marağa Rəsədxanasının qurulması da məhz onun monqol hökmdarı ilə qurduğu əlaqələr sayəsində mümkün olmuşdur.

Nəsirəddin Tusinin elmi irsi çox zəngindir və 150-dən çox əsəri mövcuddur. Əsas əsərlərindən bəziləri: "Zic-i İlxani" – Astronomik cədvəllər, "Şəklül-qita" – Riyaziyyat və triqonometriya haqqında, "Əxlaqi-Nasiri" – Etika və fəlsəfə, "Təhrir-i Öqlidis" – Evklid həndəsəsi üzərində işlədiyi əsər, "Came əl-hesab" – Riyaziyyat sahəsində fundamental əsər, "Təcrid əl-kəlam" – İslam fəlsəfəsi və teologiya.

Nəsirəddin Tusi Azərbaycan elmi və mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri olmuşdur. O, elmin müxtəlif sahələrində mühüm yeniliklər etmiş, böyük alimlər yetişdirmiş və dünya elminə misilsiz töhfələr vermişdir. Tusinin irsi bu gün də aktuallığını qoruyur və onun əsərləri elmi dairələrdə geniş öyrənilir.

## K O S O V O



***Kosovo Respublikası Şərqi Avropada bölgə və eyni zamanda müstəqilliyi mübahisəli dövlət. Kosovo Balkan yarımadasında dənizə çıxışı olmayan ölkədir. Şimal və şərqdə Serbiya, cənub-şərqdə Şimali Makedoniya, cənub-qərbdə Albaniya, qərbdə isə Monteneqro ilə həmsərhəddir. Paytaxtı və ən böyük şəhəri Priştina şəhəri, ümumi sahəsi 10,887 kvadrat kilometrdir.***

**Tarixi:** Kosovo tarixi baxımdan Balkanların ən mürəkkəb bölgələrindən biridir. Ərazi orta əsrlərdə Serbiya Krallığının tərkibində olub, lakin Osmanlı İmperiyasının 1389-cu ildə Kosova Döyüşündə qalib gəlməsindən sonra dörd əsr boyunca Osmanlı idarəçiliyində qalmışdır.



XX əsrin əvvəllərində Osmanlı dövləti zəiflədikcə, Serbiya Krallığı Kosovonu 1912-ci ildə öz ərazisinə qatdı. II Dünya Müharibəsindən sonra isə bu ərazi Yuqoslaviya Federasiyasının tərkibində muxtar vilayət statusu aldı.

1990-cı illərdə Yuqoslaviyanın dağılması ilə Serbiya və Kosovo arasında etnik gərginlik artdı. 1998–1999-cu illərdə Kosovo müharibəsi baş verdi və NATO –nun müdaxiləsi nəticəsində Serbiya qoşunları bölgədən çıxdı. 2008-ci ildə Kosovo Serbiyadan müstəqilliyini elan etdi.

Kosovo 2008-ci il fevralın 17-də Serbiyadan ayrıldığını elan etdi. Lakin Serbiya və bəzi digər ölkələr bu müstəqilliyi tanımır. Kosovanı ABŞ, Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya, Kanada, Avropa İttifaqının əksər üzvləri tanıyan ölkələrdir. Kosovonu tanımayan ölkələr isə Serbiya, Rusiya, Çin, Hindistan, İspaniya, Yunanıstan və b.

Kosovo BMT-yə üzv ola bilməsə də, beynəlxalq təşkilatlarda təmsil olunur və Avropa İttifaqına inteqrasiya etməyə çalışır.

**Əhali və Mədəniyyət:** Kosovonun əhalisinin əksəriyyəti etnik albanlar (təxminən 92%) təşkil edir. Bundan əlavə, serblər, bosniyalılar, türklər və digər etnik qruplar da yaşayır. Dininə görə, əhalinin çoxu müsəlmandır (əsasən sünni). Lakin din cəmiyyət həyatında böyük rol oynamır və Kosovo dünyəvi dövlət hesab olunur. Kosova mədəniyyəti alban və osmanlı təsirləri ilə zəngindir. Folklor musiqisi, milli geyimlər və ənənəvi mətbəx bu mədəniyyəti formalaşdırır.

**İqtisadiyyat:** Kosovo iqtisadiyyatı hələ inkişaf mərhələsindədir. Əsas sahələri kənd təsərrüfatı (taxıl, kartof, üzüm), mədənçilik (kömür, nikel, sink), xidmət sektoru (bankçılıq, ticarət) və Diaspora pulları. Kosovodan kənarda yaşayan albanlar ölkəyə böyük maliyyə axınını təmin edir. Kosovo avrodan istifadə etsə də, Avropa Mərkəzi Bankının üzvü deyil. İşsizlik səviyyəsi yüksəkdir (təxminən 20-30%).



Kosovo Balkanların ən gənc dövlətlərindən biridir və müstəqilliyi hələ də mübahisəlidir. Güclü beynəlxalq dəstəyə baxmayaraq, Serbiya və bəzi digər ölkələr onu tanımır. Ölkə Avropa və dünya siyasətində mühüm mövqeyə malikdir və gələcəkdə daha çox tanınmağa və inkişaf etməyə çalışır.

GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



## İDMAN

# "BAKURİANİ 2025" AVROPA GƏNCLƏRİNİN QIŞ OLİMPİYA FESTİVALININ RƏSMİ AÇILIŞI OLUB




***Bakurianidə fevralın 16-dək davam edəcək Avropa Gənclərinin Qış Olimpiya Festivalının təntənəli açılışı olub.*** Yarışlar Bakuriani, Tbilisi və Batumidə müasir idman infrastrukturlarında keçiriləcək. Festivalda 45 ölkədən 1000-ə yaxın idmançı səkkiz idman növü üzrə (alp dağında xizək sürmə, biatlon, sərbəst konkisürmə, fiqurlu konkisürmə, xokkey, şort-trek, kros xizək sürmə, snoubord) iştirak edəcək. İdmançılar "Abxaziya" ansamblının ifasında "Xorumi" milli rəqsinin sədaları altında təntənəli keçid ediblər. Keçid başa çatdıqdan sonra Gürcüstanın Baş naziri İrakli Kobaxidze çıxış edərək bu günün ölkə idmanı üçün tarixi gün olduğunu deyib. O, festivalın yüksək səviyyədə keçirilməsi üçün Gürcüstanda müasir standartlara cavab verən infrastrukturun yaradıldığını qeyd edib. Açılış mərasimində Gürcüstan Prezidenti Mixeil Kavelaşvili, Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos və digər rəsmi şəxslər də iştirak ediblər. Qeyd edək ki, Bakuriani XVII Avropa Gənclər Qış Olimpiya Festivalına ev sahibliyi hüququnu 2020-ci ildə Avropa Olimpiya Oyunları Komitələrinin 49-cu Baş Assambleyasında əldə edib.

## KEÇMİŞƏ EHTİRAMLA

# MÜƏLLİMLƏRİN XATİRƏSİ ANILDI

8 fevral 2025–ci ildə Marneuli rayonunun Qızılhacılı kəndindəki "Səriyyə" Şadlıq evində ayrı-ayrı vaxtlarda Qızılhacılı kəndindəki 1 və 2 saylı məktəblərdə fəaliyyət göstərmiş və dünyasını dəyişmiş müəllimlərin anım günü qeyd olundu. Tədbir Xəlil Hüseynovun təşəbbüsü və təşkilatçılığı ilə baş tutdu. Tədbirin aparıcısı ziyalı Abbas Bağmanov idi. O, tədbiri açaraq bildirdi ki, bugünkü görüşümüzün məqsədi vaxtilə bizə dərs demiş mərhum müəllimlərimizin xatirəsini yad etməkdir. O, ilk sözü tədbirin təşkilatçısı Xəlil müəllimə verdi. Xəlil müəllim müxtəlif dövrlərdə Qızılhacılıdakı məktəblərdə işləmiş və dünyasını dəyişmiş müəllimlərin xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan etdi. O, həm N. Nərimanov adına 1 saylı, həm də 20 Yanvar şəhidi Qızılhacılı əsilli İsmayıl Mursaqulov adına 2 saylı məktəbin tarixi haqqında, eləcə də müxtəlif dövrlərdə həmin məktəblərə rəhbərlik etmiş direktorlar haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi.

Tədbirdə Azərbaycan Dövlət Xəbər Agentliyinin (AzərTac) Gürcüstan nümayəndəsi Xətai Əzizov, AzTv-nin Gürcüstan üzrə müxbiri Ruslan Həsənov, ziyalılar Təbriz Əliyev, Mutu Bozduyev, Marneuli merinin Qızılhacılı ərazi vahidliyi üzrə nümayənəsi Sədrəddin Talıbov, Qızılhacılı 2 saylı məktəbin direktoru Güləbatın Məmmədova, həmin məktəbin gürcü dili müəllimi Gülyaz Muradova, el ağsaqqalı, ziyalı Cəlal Muradov, bu sətirlərin müəllifi və başqaları çıxış edərək dünyasını dəyişmiş müəllimləri minnətdarlıqla yad etdilər və onların ruhuna Ulu Tanrıdan rəhmət dilədilər.

Sonda Xəlil müəllim tədbir iştirakçılarına vaxt ayırıb tədbirdə iştirak etdiklərinə görə təşəkkürünü bildirdi.



**Şamil Ziyadəliyev,**
**"Gürcüstan"ın xüsusi müxbiri.**

## BAŞSAĞLIĞI



Qardabani Bələdiyyəsinin Candar kənd sakini Kazım İslam oğlu Daşdəmirov həmin kəndin sakini Kamran Cəlal oğlu Musayevə anası

**Validə Vaso qızı Musayevanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

Marneuli Bələdiyyəsindəki Qullar ictimai məktəbinin direktoru Hümbət Hüseynov və məktəbin pedaqoji kollektivi məktəbin müəllimi

**Emil Hidayət oğlu Allahverdiyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**



## AĞ ÖRPƏKLİ DİYARIMIZ



**Foto E.Şahvələdindir.**

## STATİSTİKA

# SON BİR İL ƏRZİNDƏ GÜRCÜSTANDA AVTOMOBIL QƏZALARINDA ÖLƏNLƏRİN SAYI AÇIQLANIB

Ötən il Gürcüstanda avtomobil qəzalarında 444 nəfər ölüb, 7587 nəfər xəsarət alıb. Bu barədə Daxili İşlər Nazirliyinin statistik məlumatında qeyd olunub. Məlumata əsasən, ümumilikdə 2024-cü ildə Cinayət Məcəlləsinin yol hərəkətinin təhlükəsizliyi və ya istismarı qaydalarının pozulması maddəsi üzrə 5866 fakt qeydə alınıb. Yol-nəqliyyat hadisələrinin baş vermə səbəblərinə gəlincə, 394 fakt müəyyən edilmiş sürət həddini aşmaqla bağlı, 358 fakt qarşıdan gələn avtomobilin yoluna keçmək və ya ötmə qaydalarını pozmaqla bağlı, 294 hal məsafə saxlamamaqla bağlı, 279 hal yol nişanına tabe olmamaqla bağlı, 236 hal piyadaların keçid qaydalarının pozulması ilə bağlı, 234 fakt dönmə manevri ilə bağlı, 185 hal isə sərxoş vəziyyətdə nəqliyyat vasitəsini idarə etmə ilə bağlı qeydə alınıb.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

# "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.